

Aysel Fikrət

## NAĞIL

Bu gecənin ətəyindən yapışdım,
Sökülmədi hələ qaraçuxası.
Adam dərdi dağ bilirsə, eybi yox,
İgid gərək bu dağı tək çıxası.

Bundan belə, nə bacardıq etmişik,
İndi qalıb bir unutmaq, bir itmək.
Kim nə qədər bacarıbsa getmişik,
İndi qalıb son ümidi itirmək.

Vallah, hərdən baş götürüb qaçıram,
Xəyallarım çəkir məni geriyə.
Geridə də bir ağlağan qızcığaz,
Kimdi ona nağıl deyə kiriyə.

Bu nağılın ən sonuncu alması,
Göydən düşüb başımıza daş kimi.
Unutmuşuq, adımız kim, dünyada,
Yaşamışıq bəlkə kimi, kaş kimi.

Son gülüşü, gözlərindən götürdüm,
O deməyə söz tapmayan sözü də.
Bir özünsən qalan hələ, bir özün,
Bir özünsən məndən qalan özündə.

Parçalayıb qoparırsan canımdan,
Ürəymə düşən, sevgi payımı.
Mən səssizəm, mən susmuşam dinmirəm,
Heç kim duymaz bu səssiz ah-vayımı.

Ürəyin də məndə qalıb, bilirəm,
Firlanırsan yuxu kimi başıma.
Ən qorxduğun gözlərimdi, bilirəm,
Gözlərini yumursan baxışıma.

Bu nə zülm, ilin-günün bu vaxtı,
Hardan uçdu, dərd uçqunu üstümə.
Sən ruhunu, ürəyini götür get,
At dərdləri, bəlaları qəstimə.

## KARVAN

Yola düşdü bu yerlərin karvanı,
Harda qalsa, harda dursa yorular.
Zınqırovlu dəvələr də yellənər,
İnsanoğlu yalnız dərddən yıxılar.

Heç bilmədən həsrət nədi dünyada,
Düzülübdü, yan-yanadı dəvələr.
Sanki mənim həsrətimdir gedirlər,
Onlar axı, bəndə deyil sevələr.

Karvan kimi köç eliyən günlərin,
Xatirəmi ötə-ötə gedirlər.
Sənsiz qalan hər gülün, hər çiçəyin,
Ürəyində bitə-bitə gedirlər.

## HƏYAT BİLGİSİ DƏRSİ

Balıqlar quşlara vurulmaz, balam,
Quşlar qanadlanıb uçarlar deyə.
Balıqlar quşlara vurulmaz, balam,
Əvvəldən yad olub, dənizlər göyə.

Quşların qanadı qırılsa əgər,
Balıqlar üzməyi bacarmasalar.
Bir gün yad suların sahillərində,
Bilmədən göz-gözə, gəlib dursalar.

Nə çıxar, bu səssiz lal sevgilərdən,
Sular da bulanar, göylər də solar.
Dünyanın rəngləri dəyişər birdən,
Balıqlar sevgidən bəlkə boğular.

Sən bu sınıq qanad quşcığazı at,
Sən bu üzəbilməz balığı unut.
Sən düş öz yolunun izinə, balam,
Daha ürəyində, başqa arzu tut.

Eh, necə olmazı olur bilirdim,
Mən də sənin kimi idim bir zaman.
Daha, ürəyimdən quşlar uçdular,
Gözümdən balıqlar üzdülər o an.

Balıqlar quşlara vurulmaz, balam,
Quşlar qanadlanıb uçarlar deyə.
Balıqlar quşlara vurulmaz, balam,
Əvvəldən yad olub, dənizlər göyə

## ÖZGƏ YUXUSU

Yaşa dolduqca adam,
Özgənin yuxusun görür.
Görür daha özü yoxdu,
Ha baxır, özünü görmür.

Qalır özündən bu yanda,
Keçir özündən o yana.
Ha bu yana, ha o yana,
Dumanda göz-gözü görmür.

Daha itir, batır adam,
Get, özünü gətir adam,
Özgələrə tez yol tapan,
Özünəsə yolu görmür.

Gedir, hara gəldi gedir,
İtir, kimdən gəldi itir.
Kimə günah, kimə pirdir,
Özü ta heç birin görmür.

Bağlanır sevgiyə gözü,
Uzanır göylərə üzü.
Aya da nə vaxtdı küsüb,
Ha boylanır göyə, görmür.

Asandı elə bil ölmək,
Yaşa doldun səslə bilək.
Ha çalışır, ha vuruşur,
Güzgüdə özünü görmür.

## BUZ

Soyuqlar düşəni, hər tərəf donub,
Ölür bu yerlərin tər çiçəkləri.
Qocalar bükülüb, sobalar sönüb,
İstinin nə özü, nə də həniri.

Əlimdə, qolumda təpər qalmayıb,
Düşüm bu dünyanın soyuq izinə.
Payızda ölənlər, nə bəxtəvərmiş,
Mələklər toxunmur, bumbuz üzünə.

Bir onu bilirəm, ömrün qışında,
Adam yaddaşını vaxtsız itirir.
Uşaqtək bəsləyir xatirələri,
Canıyla, qanıyla həsrət bitirir.

Soyuqda yaşamaq yorur insanı,
Özgə baxışında sönüb itirsən.
O yad, özgələrdən nə gedir axı,
Doğmanın önündə solub itirsən.

Sözümün canı var, ruhu göydədi,
Dediyim odur ki, buzdan ev olmaz.
Məni sevmək olmur, ay doğma üzlüm,
Bu cür soyuqluğda sevilmək olmaz.

## SON KƏSİM

Eh, gözəl adamların dərdi də gözəl olur,
Ayrılığın özü də, bir başqa xəzəl olur.
Qalmağı gözəl olur, getməyi gözəl olur,
Xatirəsi ömürlük, həsrəti əzəl olur.

Bu sevgidə heç kim yox, bir günəşdi, bir bulud,
Xatırlamaq da xoşdu, göz yaşları da inci,
Sən də nə dərd edirsən, unuda bilsən unut.
Nə küs, gözümün nuru, nə küs, nə də ki inci.

Sürüyüb ayağımı, çıxdım daha ömründən,
Mən dibçək güllərinə, baxa bilmirəm onsuz.
Nə isti geyinirəm, nə dadlı bişirirəm,
Ürəyimdə nisgil var, çoxdan gülmürəm onsuz.

Nədən susursan axı, nə demək istəyirsən,
Birdəfəlik desənə, nə uzadırsan vaxtı.
Sənin nə günahın var, mən uymuram dünyaya,
Sənmi yazmısan mənə bu qaralama baxtı.

Hə, bir onu demədim, mən səni çox sevirdim,
Hər günümə bir xoş an, bir baharlıq səs idin.
Demirəm ki, sən getdin, səhər olmadan bitdim,
Təkcə bil ki, ömrümdə ən sonuncu kəs idin.

## KEÇİR

Yol gedir, uzun bir yol,
Körpüsü çaydan keçir.
Hər gözəlin gecəsi,
Bir hilal aydan keçir.

Səhər durur o başdan,
Yol islanıb yağışdan.
Ürəydə yanan ümid,
Səhər yavaşdan keçir.

Şütüyür izdihamı,
Hamı yeriyir, hamı.
Bir dünyalıq insanı,
Sanki canımdan keçir.

Yaş o yaş deyil deyir,
Ömrünü yelə verir.
Bir günü min il bilir,
Eşq də bu yaşdan keçir.

Yenidən dirilməyən,
Bir yağışa dəyməyən.
Sabahı gətirməyən,
Doğma baxışdan keçir.

Sən də məndən keçirsən,
Hər günə and içirsən.
Dərdi ottək biçirsən,
Nə cücərir, nə keçir.

## GET

Dur tənbəl gözlərini aç, mənsiz sabahlara,
Halımı soruşmadan, qapıları bağla get.
Biz ki, illər dostuyuq, doğmayıq ayrılıqla,
Mənim ondan qorxum yox, bir baxışlıq ağla get.

Yol yaxınkən, səhərin haləsindən yığ məni,
Gecələrə ümid yox, belə gəlmə yuxuma.
Səhərləri bir iş tap, sonrasını düşünmə,
Qoyma ki, ürəyini, dərdlərimə göz yuma.

Unudulmaq da, bir cür azadlıq kimi yanğı,
Gəl bu yanğıdan əl çək, qoyma eşqi solmağa.
Axı, sən əzizimsən, mən necə qıyım sənə,
Sən unutmağa məhkum, mən də unudulmağa.

Vallah, belə bilsəydim, yollarına çıxmazdım,
Eh, lənətə gələydi, O gün, o axşam elə.
Bilirəm deyəcəksən, bircə xoş günümüz var,
Onu da gözümüzdən, gətirmə gilə-gilə.

Biz ki sevgi sözlərin, söyləmədik heç zaman,
Onda gec unudulur, insan anır deyirlər,
Birgə addımlamadıq, bu yaramaz dünyada,
Ruhun dolaşdığını, yerlər danır deyirlər.

Ey ömrümə gecikən, sən bu işdə gecikmə,
Nə edirsən-etmirsən, məni tez unut gedim.
Həyata uyduğundan ruhunu unutmusan,
Bəslədiyim gülləri, soyuqda qurut gedim.

Dur tənbəl gözlərini, aç mənsiz sabahlara.
Halımı soruşmadan, qapıları bağla get.
Biz ki, illər dostuyuq, doğmayıq ayrılıqla,
Mənim ondan qorxum yox, bir baxışlıq ağla get.

## NƏ YAXŞI Kİ

Nə yaxşı ki, o gün yağış yağırdı,
Yoxsa kim çəkərdi dərdimi mənim.
Gözümün yaşını kim gizləyərdi,
Kim üsyan edərdi, sevgimi mənim.

Qoşulub gəlmişdi göydən buludlar,
Mənim ürəyimi yerdə almağa.
Başıma dolanıb küləklər o gün,
Qoymadı ağlayım ayrılığıma.

Sonra da anamın gözləri gəldi,
Çatdı imdadıma dedi ağlama!
Sonra da Atamın səsin eşitdim,
Bala yıxılanda, belə ağrıma!

Sonra xəyallarım məni gizlədi.
Doğma gözlərinin istiliyində.
Sonra yenə yağış birdən dilləndi
Sanki dedi, bir də onu düşünmə.

Sonra da otağım bumbuz soyudu,
Sonra da əllərim dondu soyuqdan.
Büründün, büründüm içimi bükdüm,
Canım qutarmadı bu ayrılıqdan.

Sonra da ovcumda sevgimi sıxdım,
Sonra pəncərəni açdım gecəyə.
Sonra qəfəsini açıb uçurdum,
Sevgini uçurdum yenə göylərə.

Sonra səhər oldu, sıradan səhər,
Sonra gecə düşdü, günlər ötüşdü.
Sonra ağrılarım keçdi azaldı,
Sonra xatirələr yadıma düşdü.

Sonra da büsbütün ömür göründü,
Səhəri-gecəsi səndən uzaqda.
Sən məndən uşaqtək alıb qaçdığın,
Özüm də qayıtdım bir gün uzaqdan.

Nə yaxşı ki, o gün yağış yağırdı,
Yoxsa kim çəkərdi dərdimi mənim.
Gözümün yaşını kim gizləyərdi,
Kim üsyan edərdi sevgimi mənim.